UOT 025.5+32(092)

**Günel Bağırova-Hüseynova**
*dissertant,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
gunel.bagirbeyli@mail.ru

# HEYDƏR ƏLİYEV İRSİ ÜZRƏ SORAQ MƏLUMAT NƏŞRLƏRİ SBA-nın TƏRKİB HİSSƏSİ KİMİ

*Məqalədə Heydər Əliyev irsi üzrə soraq məlumat nəşrləri SBA-nın tərkib hissəsi kimi tədqiq edilmişdir. Müəllif tərəfindən tədqiqata Azərbaycan Milli Ensiklopediyası, Naxçıvan Ensiklopediyası, Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası cəlb edilmişdir.*
***Açar sözlər:*** Heydər Əliyev irsi, soraq biblioqrafiya aparatı, soraq məlumat nəşrləri, ensiklopediyalar

Heydər Əliyevin Azərbaycan elminə, tarixinə, dilinə, milli ideologiyaya, soykökünə həsr edilmiş dərin məzmunlu əsərləri, ideya və fikirləri Heydər Əliyevin irsini formalaşdırır. Onun yorulmaz fəaliyyətinin Azərbaycan elminin müxtəlif sahələri ilə bağlı əlaqələrinin coğrafiyası və tarixi çox genişdir. Ona görə də maddi-mənəvi irsi toplayan kitabxanaların qarşısında Heydər Əliyevin geniş ictimai-siyasi və eləcə də elmi-nəzəri irsinin dərindən öyrənilməsi vacib vəzifə kimi durur. Kitabxanalar Azərbaycan xalqının milli sərvəti hesab olunan Heydər Əliyev irsi haqqında nəşrlərin kitabxana fondlarında yerləşdirilməsinə xüsusi diqqətlə yanaşaraq ədəbiyyatı ardıcıl komplektləşdirir, onlar haqqında bütün məlumatları soraq-biblioqrafiya aparatında əks etdirir və həmin nəşrlərdən oxucuların istifadə etmələrinə şərait yaradır.

Biblioqrafik fəaliyyətin əsas bazası hesab edilən soraq-biblioqrafiya aparatı oxuculara soraq, informasiya xidməti və tövsiyə biblioqrafiya fəaliyyətini həyata keçirməyə imkan verir. Onun köməyi ilə kitabxanada biblioqrafik vəsaitlərin tərtibi prosesində lazım olan ədəbiyyat meydana çıxarılır.

Kitabxana xidməti zamanı kitabxana fondlarından istifadə ənənəsi inkişaf etdikcə SBA-nın əlaqələndirici funksiyası daha aparıcı rol oynayır. SBA kitabxanada soraq-biblioqrafiya işinin bazası və əsas aləti hesab olunur. Arayışların böyük bir qismi aparatın optimal təşkili zamanı 99%-i SBA-nın köməkliyi ilə yerinə yetirilir. (9, s.38) Kitabxana-biblioqrafiya biliklərinin təbliği əsasən SBA vasitəsilə həyata keçirilir və yaxud oxuculara məlumat nəşrlərindən, kataloq və kartotekalardan sərbəst istifadənin öyrədilməsi məqsədi daşıyan bütün proseslər də SBA ilə bilavasitə əlaqədardır. (8, s.87)

SBA-nın quruluşu nəzəri ədəbiyyatda təcrübi nöqteyi-nəzərindən xarakterizə edilir. Qeyd olunur ki, o 2 hissədən ibarətdir.

1. Soraq və biblioqrafik nəşrlər fondu;
2. Kataloq və kartoteka sistemi; (8, s.87)

Soraq- biblioqrafik nəşrlər fondu kitabxananın soraq biblioqrafiya aparatının bir hissəsi olub əsas və direktiv xarakterli materialları, məlumat ədəbiyyatını, biblioqrafik vəsaitləri və ödənilmiş arayışlar fondunu özündə əks etdirir. SBF-nun tərkibi və məzmunu kitabxananın tipoloji xüsusiyyətindən işin profilindən və oxucu kontingentindən asılıdır. SBF-na daxil olan sənədləri dörd qrupa ayırmaq olar. I qrupa əsas və direktiv xarakterli materiallar, eləcə də ümumiləşmiş elmi əsərlər və dərsliklər, rəsmi sənədlər daxildir, II qrupa məlumat nəşrləri: ensiklopediyalar, lüğətlər və təqvimlər əhatə edir. III qrupa biblioqrafik vəsaitlər və biblioqrafik vəsaitlərin göstəricisi yəni biblioqrafiyası daxildir. Ümumilikdə SBNF-nun 4-cü hissəsini ödənilmiş arayışlar fondu təşkil edir. (9, s.36-45)

Heydər Əliyev irsinin öyrənilməsi sahəsində xüsusi yer tutan və tədricən inkişaf edən, oxucuların sorğu və tələbatlarının ödənilməsində ən geniş istifadə edilən və geniş oxucu qrupları üçün nəzərdə tutulan nəşr tipi soraq-məlumat ədəbiyyatıdır. Soraq məlumat nəşrlərində əsas yerlərdən birini ensiklopediyalar tutur. Heydər Əliyev irsini özündə əks etdirən ensiklopediyaları araşdırarkən ilk öncə Azərbaycan Milli Ensiklopediyasını tədqiqata cəlb etmək lazımdır.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli, 55 nömrəli Sərəncamına (1, s.1) əsasən nəşr olunması planlaşdırılmış Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" adlanan xüsusi cildi 2007-ci ildə işıq üzü görmüşdür. 884 səhifəlik bu cilddə 91 dəfə Heydər Əliyevin adının çəkilməsi və burada demək olar ki, hər bir bölmədə Heydər Əliyevin həmin bölmənin əhatə etdiyi mövzu ilə bağlı fikirlərinin, ümumiyyətlə fəaliyyətinin daxil edilməsi Heydər Əliyev irsinin öyrənilməsi baxımından ensiklopediyanın mənbə kimi rolunu artırır. Məs. Ensiklopediyanın bu cildinin 313-315-ci səhifələrində "Azərbaycan SSR XX əsrin 60-cı illərin sonu 80-ci illərdə" adlı başlıq altında Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi və bu dövrdə fəaliyyəti haqqında geniş məlumat verilmişdir. (2, s.313-315) Eyni zamanda ensiklopediyanın 316-317-ci səhifələrində "Sovet imperiyasının süqutu. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması" (2, s.316-317) və 325-338-ci səhifələrdən "Müstəqil Azərbaycan Respublikası" başlıqları altında Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsindən vəfatına qədər olan dövr əhatə olunmuşdur. (2, s.325-338)

Heydər Əliyev irsinin öyrənilməsi baxımından önəmli olan ensiklopediyalardan biri "Naxçıvan ensiklopediyası" hesab olunur.

Naxçıvan diyarının tarixindən, təbiətindən, görkəmli şəxsiyyətlərindən bəhs edən universal elmi nəşr 2002-ci ildə Elm nəşriyyatında çapdan çıxmışdır. 596 səhifədən ibarət bu nəşr 10000 nüsxə tirajla çap olunmuşdur. Qeyd edək ki, "Naxçıvan ensiklopediyası" 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası"ndan sonra respublikada işıq üzü görən ilk fundamental ensiklopediyadır. Bu nəşr ümummilli liderimiz Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" 1999-cu il 12 fevral tarixli sərəncamına əsasən, Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin nəzdində yaradılmış "Naxçıvan ensiklopediyası" qurumu tərəfindən nəşrə hazırlanmışdır. (5, s.3)

Ensiklopediya ümummilli lider Heydər Əliyevin bu sözləri ilə başlayır: "Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermidir. Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq prosesləri gedir" (5, s.2)

Ensiklopediyada Heydər Əliyev haqqında irihəcmli məqalə ilə yanaşı, "Naxçıvan ensiklopediyası"nın 136-141-ci səhifələrində geniş məlumat verilmişdir. (5, s.136-141)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında" 2004-cü il 9 fevral tarixli sərəncamı ilə müəyyən edilmiş tədbirlər planına uyğun olaraq Naxçıvan Ensiklopediyasının təkrar nəşr edilməsi qərara alınmış və buna müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan Ensiklopediyasının təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşri hazırlanmışdır. Əlavə olaraq cildə 200-ə yaxın yeni məqalə daxil edilmişdir. (6, 7). Nəşrin 1-ci cildinin 170-177-ci səhifələrində Heydər Əliyevin həyat və fəaliyyəti haqqında geniş məqalə yer almışdır. Ensiklopediyanın 2-ci cildində (səh.122-127,128,151,154,157,162) Heydər Əliyevin Naxçıvanın mövcudluğu və nicatı üçün siyasi fəaliyyəti, Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyasında xalqın istəyi ilə sədr seçilməsi, Yeni Azərbaycan Partiyasının əsasının qoyulması və digər tarixi məqamlar öz əksini tapmışdır.

Heydər Əliyev irsinə dair soraq məlumat nəşrinin tərkib hissəsi hesab olunan “Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası”na Heydər Əliyev haqqında məqalələr daxil edilmişdir. (3, s.9) Ensiklopediyanın birinci cildində 144 yerdə Heydər Əliyevə istinad edilir. Belə ki, ensiklopediyanın təhlili zamanı məlum olur ki, burada Heydər Əliyevin AXC-nin fəaliyyətinin öyrənilməsi ilə bağlı fəaliyyəti ilə yanaşı, ondan lazım olduqca sitatlar gətirilmişdir. Məsələn ensiklopediyanın 27-ci səhifəsində Heydər Əliyevdən sitat gətirilərək qeyd olunur ki, "XIX əsrdən başlanan mürəkkəb ictimaisiyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçiin münbit zəmin yarandı". (3, s.27) Ensiklopediyanın 29-cu səhifəsində isə qeyd olunur ki, “Azərbaycanın istiqlal mübarizəsi tarixinin bu dəyərli və parlaq sənədinə bütün Azərbaycan tarixşünaslığında ən obyektiv tarixi qiyməti ilk dəfə olaraq Prezident Heydər Əliyev vermişdir: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini biitün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hiiquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı". (3, s.29)

Ensiklopediyanın ikinci cildində isə 18 dəfə Heydər Əliyev irsinə müraciət edilir. Birinci cilddə olduğu kimi burada da ümummilli lider Heydər Əliyevin AXC-nın ideyalarının davam etdirilməsi, onun fəaliyyətinin unutdurulmaması istiqamətində gördüyü işlər, verdiyi sərəncamlar, imzaladığı fərmanlarla yanaşı ondan sitatlar gətirilmişdir. Belə ki, ensiklopediyanın ikinci cildinin 92-ci səhifəsində belə bir hissə mövcuddur “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1997-ci ilin mayında ölkəmizin müstəqilliyi Respublika günü münasibətilə söylədiyi nitqində xalqımızın başına gətirilən bu müsibətlə bağlı demişdir: "Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1947-48-ci illərdə Azərbaycan xalqına qarşı Sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik, ...biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq təcavüz edibdir. O dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar" (4, s. 92), eləcə də 257-ci səhifədə “Azərbaycan Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli qərarı Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusunu qəti təsbit etdi. Naxçıvanın muxtariyyəti statusu diyarın sonrakı tarixi taleyində çox mühüm rol oynamışdır. "Naxçıvan muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amiti qoruyub saxlamalıyıq" (Heydər Əliyev).” kimi məlumatlara rast gəlmək mümkündür. (4, s.257) Bu cür nümunələri davam etdirərək qeyd edə bilərik ki, 299-cu səhifədə “Respublika Dövlət Arxivi” adlı məqalədə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin kollektivi Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi üçün Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamına əsasən yaradılmış Dövlət Komissiyasının qərarı ilə Cümhuriyyət dövrünə aid 7 cildlik sənədlər toplusunu (Azərbaycan və rus dillərində) çap etdirməsi haqqında məlumat mövcuddur. (4, s. 299)

Yekunda qeyd edək ki, Heydər Əliyevin zəngin irsi, idarəçilik təcrübəsi, elmə gətirdiyi yeniliklər analitik mərkəzlər tərəfindən daha diqqətlə, daha dərindən öyrənilməklə müasir

idarəçilikdə geniş tətbiq edilir. Onun ideyaları və əməli fəaliyyəti dövlət quruculuğunun, sosial-iqtisadi və mədəni-mənəvi inkişafın bütün istiqamətlərində mütəxəssisləri istiqamətləndirir. Bu istiqamətlər yeni tədqiqat işlərinin obyektinə və predmetinə çevrilərək yeni kitabların meydana gəlməsinə səbəb olur. Ona görə də Heydər Əliyev irsi öyrənilir və öyrənilməyə davam edir. Bu tədqiqat işini apararkən belə nəticəyə gəlmək olar ki, bu irs haqqında xeyli sayda soraq məlumat nəşrinə rast gəlmək mümkündür. Elə bir soraq məlumat nəşri yoxdur ki, orda Heydər Əliyevə istinad edilməsin. Ona görə də konkret nəticələr əldə etmək üçün həmin nəşrlərin hər birini əldə etmək, mütaliə etmək, tədqiq etmək lazımdır. Məhz buna görə də kitabxanalar bu irsə dair dərc olunmuş vəsaitləri operativ şəkildə oxucuların ixtiyarına vermək üçün bu irsə dair soraq məlumat nəşrlərini soraq biblioqrafiya aparatının tərkib hissəsinə fasiləsiz şəkildə daxil etməyə davam edir.

**Ədəbiyyat :**

1. "*Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında*". *Azərbaycan* Respublikası *Prezidentinin Sərəncamı* (12 yanvar 2004-cü il, № 55) // Xalq qəzeti, 2004, 13 yanvar, s.1.
2. Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. Azərbaycan. Bakı : Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 883 s.
3. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. İki cilddə. C.1. Bakı : Lider nəşriyyatı, 2004, 440 s..
4. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. İki cilddə. C.2. Bakı : Lider nəşriyyatı, 2005, 472 s.
5. Naxçıvan ensiklopediyası / red. heyəti : C.Ə.Əliyev, A.A.Əlizadə, İ.Ə.Həbibbəyli. Bakı.: AMEA, 2002, 598 s.
6. Naxçıvan ensiklopediyası: NE [Mətn] : 2 cilddə. C.1 /AMEA, Naxçıvan bölməsi ; red. hey. B.Budaqov [və b.] ; burax. məsul. V.Talıbov; [məqalələrin müəl. Y. Axundlu [və b.]]. Naxçıvan, 2005, 356 s.
7. Naxçıvan ensiklopediyası: NE [Mətn] : 2 cilddə. C.2 /AMEA, Naxçıvan bölməsi ; red. hey. B. Budaqov [və b.] ; burax. məsul. V. Talıbov; [məqalələrin müəl. Y. Axundlu [və b.]]. Naxçıvan, 2005, 376 s.
8. Vəzirova R. Elektron biblioqrafik məlumat bazası soraq biblioqrafiya aparatının əsas təkib hissəsidir// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. Bakı, 2007, №2, s. 85-96.
9. Rzayeva A. Soraq biblioqrafiya aparatı oxuculara kitabxana-informasiya xidmətinin əsas bazası kimi// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. Bakı, 2007, №2, s.36-45

***Гюнель Багирова-Гусейнова***

## СПРАВОЧНО-ИНФОРМАЦИОННЫЕ ИЗДАНИЯ ПО НАСЛЕДИЮ ГЕЙДАРА АЛИЕВА КАК ЧАСТЬ СБА.

**Резюме**

Статья подготовлена на основании исследования наследия Гейдара Алиева по материалам таких справочно-информационных изданий как Национальная Энциклопедия Азербайджана, Нахчыванская Энциклопедия и Энциклопедия Азербайджанской Народной Демократической Республики, являющихся неотъемлемой частью справочно-библиографического аппарата (СБА).

***Ключевые слова:*** *наследие Гейдара Алиева, справочно-библиографический аппарат, справочно-информационные издания, энциклопедии*

***Gunel Bagirova-Quseyinova***

**REFERENCE AND NFORMATİONAL PUBLİCATİONS ON THE HERİTAGE OF HEYDAR ALIYEV AS PART OF THE BRA**

**Summary**

In the article, the reference information publications of Heydar Aliyev heritage has been investigated as an integral part of the BRA. The author has investigated the National Encyclopedia of Azerbaijan, the Nakhchivan Encyclopedia, and the Encyclopedia of the Azerbaijan Democratic Republic.

***Keywords:*** *the heritage of Heydar Aliyev, bibliographic reference apparatus, reference information publications, encyclopedias.*

Redaksiyaya daxil olma tarixi: 18.11.2019
Çapa qəbul olunma tarixi: 02.12.2019

Redaksiya heyətinin üzvü **Qutiyera Cəfərova** tərəfindən çapa tövsiyə olunmuşdur.